Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının "___""________" 2023-cü il tarixli _____________nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**Sığortaedənə uçot nömrəsi barədə məlumatın verilməsi xidmətinin**

**PASPORTU**

**Xidmətin adı:**

- Sığortaedənə uçot nömrəsi barədə məlumatın verilməsi

**Xidmətin məzmunu**

- Sığortaedənə sığortaçı tərəfindən verilmiş sığortaedənin uçot nömrəsi (SUN) haqqında məlumatın təqdim edilməsi

**Xidmətin aid olduğu təsnifat:**

- Sosial sığorta

**Xidməti həyata keçirən dövlət qurumunun adı:**

- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (Nazirlik) tabeliyində Dövlət Sosial Müdafiə Fondu (Dövlət Sosial Müdafiə Fondu)
- Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi)

**Xidmətin həyata keçirilmə formaları:**

- Elektron qaydada
- Çağrı mərkəzi vasitəsilə
- Xidmət yerinə şəxsən və ya onun nümayəndəsi gəlməklə
- Poçt vasitəsilə

**Xidmətin həyata keçirilməsi və nəticəsi barədə məlumatlandırma forması:**

- Elektron qaydada
- Çağrı mərkəzi vasitəsilə
- Birbaşa (yerində)
- Poçt vasitəsilə

**Xidmətin həyata keçirilməsinin nəticəsi:**

- Sığortaedən kimi uçotda olduqda Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemindən (MEİS) əldə edilən məlumatlar əsasında şifahi, yazılı və elektron qaydada məlumatlar təqdim edilir. Sığortaedən kimi uçotda olmadıqda uçotda olmadığı barədə məlumat təqdim edilir

**Xidmət istifadəçisi barədə məlumat:**

Sığortaedənlər

**Xidmətin həyata keçirilməsi müddəti, xidmət haqqı, xidmət ödənişli olduqda ödənilmə üsulları:**

- Müddət: 7 iş günündən gec olmayaraq
- Xidmət haqqı: Ödənişsiz

**Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti:**

- Elektron qaydada 7/24
- Digər hallarda iş günlərində iş saatları ərzində

**Xidmətin göstərilmə yeri:**

- Dövlət Sosial Müdafiə Fondunun Mərkəzi və Regional Filiallarının inzibati binası
- DOST mərkəzləri və filiallarının inzibati binası

**Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları:**

- Sənədlərin natamamlığı
- Hüquqi əsasın olmaması

**Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması:**

- Elektron qaydada və Çağrı mərkəzi vasitəsilə müraciət edildikdə sənəd tələb olunmur
- Xidmət yerinə gəlməklə və yazılı müraciət edildikdə vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin (VÖEN)-, şəxsiyyəti təsdiq edən sənədin (əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə Azərbaycan Respublikasının ərazisində daimi və ya müvəqqəti yaşayış hüququ verən icazə vəsiqəsi) surəti
- Müraciət nümayəndə vasitəsilə edildikdə nümayəndənin səlahiyyətlərini təsdiqləyən sənəd

**Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar:**

- Elektron qaydada və Çağrı mərkəzi vasitəsilə müraciət edildikdə “Elektron hökumət” və “e-sosial” internet portalında Nazirliyin “Sığortaedənin uçot nömrəsinin öyrənilməsi” elektron xidmətindən istifadə etməklə VÖEN sistemə daxil edilir. VÖEN barədə məlumat sistemə daxil edildikdən sonra sığortaedənin uçotu barədə məlumat əldə edilir.
- Xidmət yerinə gəlməklə və yazılı müraciət edildikdə Dövlət Sosial Müdafiə Fondunun müvafiq yerli qurumlarının və ya DOST mərkəzləri və filiallarının inzibati binalarına yaxınlaşmaqla şəxsiyyəti təsdiq edən sənəd və ya VÖEN barədə məlumat təqdim edilir. VÖEN barədə məlumat sistemə daxil edildikdən sonra sığortaedənin uçotu barədə məlumatlar təqdim edilir.

**Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar:**

- “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununun 71-72-ci maddələrinə əsasən xidmət istifadəçiləri xidmətin göstərilməsindən edilən imtinadan 30 gün müddətində yuxarı səlahiyyətli orqana inzibati qaydada şikayət verə bilər. İnzibati şikayətin forması “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinə uyğun olmalıdır. Şikayətə daxil olduğu gündən “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununun 78-ci maddəsinə əsasən 1 ay müddətində baxılır və mahiyyəti üzrə qərar qəbul edilir. Müəyyən edilmiş müddət ərzində qərar qəbul edilmədikdə və ya qəbul edilmiş qərarla razılaşmadıqda, şikayətçi məhkəməyə şikayət verə bilər

**Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları:**

- “Elektron hökumət” portalı
- MEİS
- “e-sosial” internet portalı

**Xidmətin elektronlaşma səviyyəsi:**

- Elektronlaşdırılıb

**Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:**

- Avtomatlaşdırılmayıb